**Səadət Ramil qızı QULİYEVA**
Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyası
Maliyyə və mühasibat uçotu kafedrasının dosenti
E-mail: 13sada@mail.ru

# MÖVCUD MİLLİ İQTİSADİ İNKİŞAFIN TƏHLİLİ

**XÜLASƏ**

Məqalədə mövcud milli iqtisadiyyatın vəziyyəti barədə təhlil aparılmışdır. Mövcud iqtisadiyyatın inkişafına mənfi təsir göstərən məhdudiyyətlər və çətinliklər mövzusuna toxunulmuşdur. Bunlardan əlavə, məqalədə milli iqtisadiyyatın davamlı inkişafına töhfə verən mövzular da araşdırılmışdır.

**Məqsəd** - Ölkə üçün milli iqtisadi inkişafın vacibliyi və davamlı inkişaf, iqtisadiyyatın inkişaf etməyən sahələrini ön planda göstərmək, post-konflikt ərazilərdə dayanıqlı iqtisadiyyatın qurulmasının əhəmiyyəti və çətinliklərinin müəyyən edilməsi.

**Metodologiya** - Məqalədə sistemli yanaşma metodundan istifadə edilmişdir.

**Tədqiqatın nəticələri** - Azərbaycanda post-konflikt quruluşu modelinin tətbiqi inzibati ərazi bölgüsünün yenidən formalaşdırılmasından başlayaraq, azad bazar anlayışını özündə əks etdirən xüsusi iqtisadi zonaların yaradılması, multimodal nəqliyyat dəhlizinin təşəbbüs olunması kimi bir çox sahələri əhatə edir.

**Açar sözlər**: İqtisadi inkişaf, dayanıqlı inkişaf, milli iqtisadiyyat, post-konflikt quruluşu modeli.

**JEL:** G21
**UOT:** 33.338.336
**DOI:** https://doi.org/ 10.54414/KIMS4335

**Giriş**

Azərbaycan iqtisadiyyatı 2024-cü ilin ötən 3 rübü ərzində yüksək artım tempi nəticəsində dayanıqlı inkişafını daha da möhkəmləndirib. 2024-cü ilin yanvar-sentyabr aylarında ölkəmizdə ümumi daxili məhsul (ÜDM) 92 milyard 829,5 milyon manat təşkil edib. Bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 4,7% artım olduğunu göstərir. Neft və qaz sektorunda əlavə dəyər 0,9% artıb, qeyri-neft-qaz sektorunda isə bu artım 7,1% olub. Hər bir əhalinin payına düşən ÜDM isə 9102,9 manat təşkil edir.

İqtisadiyyatin daima inkişafda olması üçün onun dayanıqlı olması və şaxələndirilməsi zəruridir. Milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın əsas hissəsi olduğundan xarici mühitdən təsirlənə bilir. Bu səbəbdən uzun müddətli dövrdə iqtisadiyyatın digər təsirlərə dayanıqlığının gücləndirilməsi və şaxələndirilməsi, iqtisadi sabitliyin daha da möhkəmləndirilməsi təmin olunmalıdır.

Milli iqtisadiyyatin ümümdünya təsərrüfatında oynadığı rol və tutduğu yer ilk növbədə ölkənin iqtisadi inkişafı, dünya bazarında rəqabətə dözümlülüyü,onun təbii və iqtisadi potensialının həcmi ilə müəyyənləşir.

Qarabağın inkişafı strategiyası uzun,qısa,ortamüddətli dövrü əhatə etməklə, beynəlxalq yerli, regional, milli səviyyələrdə olan fəaliyyətləri özündə əks etdirə bilər. Strategiyanın həyata keçirilməsindən ötrü idarəetmənin təşkili,dövlətin sosial,monetar makroiqtisadi, digər siyasət alətlərindən istifadə zəruridir. İri dövlət maliyyələşməsinin əsas götürərək beynəlxalq inkişafın partnyorlarının dəstəyini tənzimləyən donor koordinasiyası mexanizmi vacibdir. Eyni zamanda milli valyutanın real məzənnəsinin tənzimlənməsinə görə pul kütləsinin iqtisadiyyat tərəfindən udulması mərhələlərinin nəzərə alınması zərurəti yaranar. 2023-cü ilin sentyabrnda Azərbaycan dövləti tarixi torpaqlarımız olan Qarabağ üzərində öz suverenliyini təmin edərək erməni separatizminə əbədi son qoydu.

Prezidentimiz İlham Əliyevin Azərbaycana rəhbərliyinin ən uğurlu göstəricilərindən biri iqtisadi sahədə tarixi dəyişikliklər və sürətli, hərtərəfli inkişafdır. 30 il əvvəl hərbi-iğtişaşlar yaşayan, müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən Azərbaycan bu gün etibarlı tərəfdaş, siyasi və makroiqtisadi cəhətdən sabit, davamlı və dayanıqlı iqtisadi inkişafa malik dövlət kimi tanınır, qlobal

enerji və nəqliyyat layihələrində iştirak edir və beynəlxalq tədbirlərə ev sahibliyi edir.

Azərbaycan Cənubi Qafqazın inkişaf etməkdə olan və əsas iqtisadi potensiala malik olan dövlətidir. Prezident İlham Əliyev çox qısa müddətdə bütün sahələrin inkişafı istiqamətində çoxşaxəli islahatlar həyata keçirərək Azərbaycanın ən yeni tarixində qızıl hərflərlə yazılmış iqtisadi uğurların müəllifi oldu.

İqtisadi uğurlara nail olmaq üçün çoxsaylı strateji məqsədlərə nail olunub ki, bunlardan da ən mühümü Heydər Əliyev tərəfindən əsası qoyulmuş enerji siyasətinin davam etdirilməsidir. Məlumdur ki, müstəqillik dövründə xalqımızın əldəetdiyi ən böyük uğurlardan biri ümummilli lider Heydər Əliyevin tərəfindən işlənib hazırlanmış yeni neft strategiyasının təntənəsi və Azərbaycan dövlətinə gətirdiyi siyasi və iqtisadi dividendlərdir. 1993-cü ilin ortalarına qədər bir-birini əvəzləmiş iqtidarların neft-qaz siyasətindən kəskin şəkildə fərqlənən bu strategiyanın əsas mahiyyəti Azərbaycan dövlətinin və xalqının öz milli maraqları ilə uzlaşması idi. Bu strategiyasının uğurla həyata keçirilməsi nəticəsində dünyanın aparıcı neft şirkətləri Xəzərin Azərbaycan sektorunda neft hasilatına cəlb olundular. İxracda əsasən neft və qaz məhsulları, habelə bu məhsullardan hazırlanan mallar üstünlük təşkil edir. Lakin qeyri-neft məhsullarının ixracı artmaqdadır və bu göstərici 2 milyard dollar ətrafında olub. İxrac olunan əsas məhsullar arasında tərəvəz və meyvə məhsulları liderlik edir. Xüsusilə pambıq və pambıq lifi, meyvə-tərəvəz, bitki və heyvan mənşəli piylər və yağlar, kimyəvi məhsullar, sənaye texnologiyaları, elektrik enerjisi və kosmik sənaye məhsullarının ixracı davamlı olaraq artır.

## Material

İlham Əliyevin müdrikliyi və siyasi iradəsi, layihə iştirakçıları arasında düzgün koordinasiyanın təşkili, beynəlxalq maliyyə insitutları ilə əməkdaşlıq, Avropa İttifaqının siyasi dəstəyinin təmin olunması bu layihənin hər bir mərhələsinin uğurla tamamlanmasını təmin etdi.

Bütövlükdə isə reallaşan bütün enerji layihələri cənab İlham Əliyevin ölkə prezidenti olaraq fəaliyyətinin mühüm siyasi-iqtisadi hadisələri kimi ötən dövrdə həm Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsində, həm də strateji tərəfdaşlarının sayının artmasında böyük rol oynamaqdadır. Bu uğurları ilə ötən 20 ildə Avrasiyanın enerji xəritəsinə ciddi korrektələr edən Azərbaycan artıq qlobal enerji təhlükəsizliyi dialoqunun söz sahibi olan tərəf kimi tanınır. Beləliklə, Prezident İlham Əliyev ölkəmizin inkişafı ilə yanaşı, həm də dünya birliyində onun mövqelərini davamlı şəkildə gücləndirib. Dövlət başçısının həyata keçirdiyi tam müstəqil və qətiyyətli xarici siyasət regionda cərəyan edən siyasi, iqtisadi proseslərin axarına da həlledici təsir göstərir.

2024-cü ilin yanvar-sentyabr dövrü ərzində investisiya fəaliyyəti artıb və əsas kapitala 12,7 milyard manatdan çox vəsait yönəldilib. Bu məbləğin 6,3 milyard manatı (50%) istehsal sahələrinə, 4,7 milyard manatı (37%) xidmət sektoruna, 1,7 milyard manatı isə (13%) tikinti sahəsinə sərf olunub. Yatırılan sərmayələrin 10,5 milyard manatı daxili investisiyalar, 2,2 milyard manatı isə xarici sərmayələr təşkil edib. Əsas kapitala qoyulan xarici investisiyaların böyük hissəsi qeyri-neft sektorlarında həyata keçirilən müxtəlif layihələrə, o cümlədən "yaşıl enerji" sahəsinə yönəlmişdir.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş Qarabağ bölgəsində günəş və külək enerjisinin potensialı qiymətləndirilir. İndi bölgədə şəhər və kəndlərin dağılmış infrastrukturunun intensiv bərpası davam etdirilir və yaşıl texnologiyaların tətbiqi prioritet məsələdir. Bölgə ərazisinin 28%-nin yüksək günəş enerji potensialına (1501-1607 kVt/m2/il) malik olduğu göstərilir. Azərbaycan Respublikasının su hövzəsinin müəyyən hissəsi post-konflikt ərazilərimizdə formalaşması bu regionun böyük hidroenerji imkanlarına malik olduğunu deməyə əsas verir.Qarabağın və Şərqi Zəngəzurun bu imkanlarını qiymətləndirərək əminliklə deyə bilərik ki, yaxın gələcəkdə post-konflikt ərazilərimiz “yaşıl enerji cənnətinə” çevriləcəkdir. Artıq dövlətimiz bu istiqamətdə əməli addımlar atmışdır. Laçın rayonunda “Güləbird” SES və Tərtərdə “Suqovuşan-1” və “Suqovuşan-2” KSES, Kəlbəcərdə “Kəlbəcər-1” KSES açılışı, habelə Qarabağ və Şərqi Zəngəzurun 11 ərazi vahidində olan SES-lərin yenidənqurulması və bərpası hidroenerji ehtiyatlarımızdan səmərəli istifadəyə şərait yaradacaq. Heç şübhəsiz ki, bütün bu işlərin görülməsi böyük maliyyə vəsaitləri tələb edir. Bu amili nəzərə alsaq, xarici investisiyaların

post-konflikt ərazilərimizin “yaşıl enerji” sektoruna cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə də artıq bir sıra işlər görülməkdədir. Azərbaycan Respublikası Energetika Nazirliyi “Masdar” (BƏƏ) – külək enerjisi; “BP” (Böyük Britaniya), “ACWA Power” (Səudiyyə Ərəbistanı) –günəş enerjisi; “Tepsco” (Yaponiya); “Fortescue Future Industries” (Avstraliya); “Maire Tecnimont” (İtaliya);“China Gezhouba Group Overseas Investment” (Çin), “Total Energies” (Fransa) şirkətləri ilə birlikdə müqavilə imzalanmışdır.

"Yaşıl enerji" zonası çərçivəsində işğaldan azad olunmuş ərazilərdə enerji təchizatı infrastrukturunun yaradılması, bərpa olunan enerji mənbələrindən elektrik enerjisinin istehsalı, enerji səmərəliliyinin artırılması, yaşıl texnologiyaların tətbiqi və dövlət-özəl sektor əməkdaşlığının təşviqi üzrə tədbirlər planlaşdırılır.

Ümumilikdə Şərqi Zəngəzur və Qarabağın “yaşıl enerji” potensialı (günəş, külək və su) 10 min meqavat gücündə qiymətləndirilir. Qarabağın dağlıq ərazilərində külək enerjisinin potensialı 300-500 meqavat kimi qiymətləndirilir.

Hazırda ölkə iqtisadiyyatına sərmayə axını müsbət tendensiya göstərir və aylıq investisiyaların həcmi artıq 1,4 milyard manatdan çoxdur. Bu cür artım tempi, ilin sonuna qədər sərmayə qoyuluşlarının ümumi həcminin 16 milyard manatı keçəcəyini gözləməyə əsas verir. Eyni zamanda, sərmayə portfelində xərclərin böyük hissəsi, təxminən 70 faizi, tikinti və infrastruktur işlərinə yönəldilir. 2024-cü ilin dövlət büdcəsindəki düzəlişlərdən sonra işğaldan azad olunmuş ərazilərə yönələn vəsaitlər 2,2 milyard manat artmışdır ki, bu da tikinti və bərpa işlərinin sürətlənməsi fonunda sərmayə qoyuluşlarının daha da artacağına işarə edir.

Bundan başqa, xarici investisiya mühitinin yaxşılaşdırılması, sərmayələrin təşviqi və qorunması, eləcə də gəlirlərə və əmlaka dair ikiqat vergitutmanın aradan qaldırılmasına dair xarici ölkələrlə imzalanan sazişlərin artırılması, investisiya mühitinin güclənməsinə təkan verir. Ekspertlər 2024-cü ildə ümumi sərmayələrin həcminin 18 milyard manata çatacağını proqnozlaşdırırlar. 2025-ci ilədək qarşıya qoyulmuş məqsədlərdən biri də məhz xarici investorların dünya standartlarına uyğun fəaliyyət göstərməsinə şərait yaradacaq biznes mühitinin təmin edilməsidir. İqtisadi inkişafın müxtəlif sahələrdə, xüsusilə də qeyri-neft sektorunda işgüzar fəaliyyətin artmasına səbəb olduğu ölkə iqtisadiyyatında əhalinin gəlir imkanları da yaxşılaşıb. 2024-cü ilin yanvar-sentyabr ayları ərzində əhalinin işə marağı artıb və iqtisadiyyatda muzdla işləyən şəxslərin sayı 1 milyon 755 min nəfər olub. Bu şəxslərin 878,3 min nəfəri dövlət sektorunda, 877 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərir. Ölkə iqtisadiyyatında muzdla işləyənlərin orta aylıq əməkhaqqı 2024-cü ilin yanvar-avqust aylarında əvvəlki ilin eyni dövrü ilə müqayisədə 8% artaraq 997,1 manat olub. Ən yüksək orta əməkhaqqı isə mədənçıxarma sənayesi, maliyyə və sığorta fəaliyyəti, peşə və elmi fəaliyyət, informasiya və rabitə, nəqliyyat və anbar təsərrüfatı kimi sahələrdə qeydə alınıb. Bu dövr ərzində əhalinin nominal gəlirləri 6,1% artaraq 53 milyard 947,2 milyon manat olub, yəni hər bir vətəndaşa orta hesabla 5291,6 manat düşüb. Əhalinin sərəncamına keçən gəlirlərin ümumi həcmi isə 47 milyard 488,1 milyon manat olub.

**Analiz**

Gəlirlərin artım tempi inflyasiya göstəricisini təxminən 4 dəfə üstələyib. 2024-cü ilin yanvar-sentyabr aylarında inflyasiya 1,5% təşkil edib, bu da həm əhalinin orta aylıq əməkhaqqının, həm də real gəlirlərinin inflyasiyanı üstələyərək sosial rifah halının yaxşılaşmasına səbəb olub.

2024-cü ilin yanvar-avqust aylarında Azərbaycan xarici ticarət əlaqələrinin sayını və ümumi ticarət dövriyyəsinin həcmində artım qeydə alınıb. Bu dövr ərzində 172 ölkə ilə ticarət əlaqələri qurulub, 117 ölkəyə məhsul ixrac olunub, 161 ölkədən isə məhsullar idxal edilib. Ölkəmizin xarici ticarət dövriyyəsi 30,2 milyard dollar təşkil edib, bunun 17,5 milyard dolları ixracın payına düşüb. İdxalın həcmi isə 12,7 milyard dollar olub və nəticədə xarici ticarət balansında 4,7 milyard dollar dəyərində müsbət saldo yaranıb. Azərbaycan xarici ticarət dövriyyəsinin böyük bir hissəsini aşağıdakı ölkələrlə təşkil edib: İtaliya - 22,5%, Türkiyə - 13,5%, Rusiya - 9,5%, Çin - 7,4%, İsrail - 4,5%, Almaniya - 3,2%, Avstraliya - 2,9%, Hindistan - 2,6%, Çexiya və ABŞ - 2,5%-lik paylarla, Xorvatiya - 2%, Birləşmiş Krallıq - 1,9%, Yunanıstan və Portuqaliya isə hər biri 1,4% olmaqla. Qalan 1% pay isə digər ölkələrin ticarətinə aiddir Bolqarıstan, Gürcüstan, İran, Rumıniya, Ukrayna,

Belarus, İsveçrə və Türkmənistan yer alır. Xarici investisiyalar bir sıra amillərə şərait yaradır. Bunlara misal olaraq, məhsuldarlığın artırılması, texnologiyanın bir ölkədən digərinə ötürülməsi, məşğulluq səviyyəsinin yüksəldilməsi, iqtisadi artımı təmin etməklə milli iqtisadiyyatın şaxələndirilməsini misal göstərmək olar. 2024-cü ilin birinci yarısında 12 sahibkarlıq subyektinə investisiya təşviqi sənədi təqdim edilib. Bu sənədlər əsasında həyata keçiriləcək layihələr nəticəsində yerli istehsala 1,5 milyard manatdan çox investisiya qoyulması və 3439 yeni iş yerinin yaradılması gözlənilir. Həmçinin, həmin dövr ərzində investisiya təşviqi sənədi almış hüquqi şəxslərə və fərdi sahibkarlara 31,7 milyon ABŞ dolları dəyərində texnika, texnoloji avadanlıq və qurğuların idxalı üçün 194 təsdiqedici sənəd verilib. Nəticədə sahibkarlar idxalda tətbiq olunan vergi və rüsumlardan 7,2 milyon ABŞ dolları məbləğində güzəşt əldə edib. Ölkəmizin bütün bölgələrində, xüsusilə Qarabağda yeni istehsal sahələri yaradılır və milli istehsalın inkişafı daha da önəmləndirilir. Bu yanaşma növbəti illər ərzində əsas prioritetlərdən biri olacaq və iqtisadi potensialın daha effektiv istifadə olunmasına yönəldiləcək. Füzuli, Zəngilan, Kəlbəcər, Cəbrayıl, Qubadlı, Zəngilan, Şuşa, Laçın, Ağdam rayonlarında təhsil müəssisələrinin tikinitisi işləri davam edir. Ölkəmizlə qarşılıqlı əməkdaşlıq və dostluq çərçivəsində bir sıra ölkələr tərəfindən işğaldan azad edilmiş ərazilərin bərpasına mənəvi dəstək göstərmək məqsədilə layihələr həyata keçirilir. Nəticə etibarilə, iqtisadi inkişafın qeyri-neft sektorları üzərindəki dayanıqlılığının daha da artması ehtimal olunur. 2025-ci ilin sonuna qədər ümumi daxili məhsul (ÜDM) həcminin 129,2 milyard manat, o cümlədən qeyri-neft ÜDM-in həcminin 92,2 milyard manat olacağı, 2028-ci ildə isə ÜDM-in 150,8 milyard manata çatması, qeyri-neft ÜDM-in isə 117,2 milyard manat olacağı gözlənilir. Orta müddətli dövr üçün ÜDM-in illik real artım tempinin 3,35 faiz, qeyri-neft ÜDM-in isə 5 faiz olması proqnozlaşdırılır. 2028-ci ilədək qeyri-neft sektorunun ÜDM-dəki payının 77,7 faizə yüksəlməsi, neft-qaz sektorunun isə 22,3 faiz olacağı gözlənilir.

**Nəticə:**

Erməni işğalından azad edilmiş ərazilərin ölkənin iqtisadi və sosial inkişafında mühüm rolu bərpa edilməlidir. Bu ərazilərdə iqtisadi fəaliyyətin yenidən canlandırılması üçün zəruri olan resurslar təmin edilməli və uzunmüddətli perspektivlərə yönəlmiş iqtisadi inkişaf proqramları həyata keçirilməlidir. Milli iqtisadiyyatın strukturunun yenilənməsi biznes mühitinin daha da yaxşılaşdırılması, ortamüddətli xərclər strategiyası çərçivəsində yeni siyasətin tətbiq edilməsi, maliyyə–bank sisteminin sağlamlaşdırılması və monetar siyasətin üzən məzənnə rejimi üzərində təkmilləşdirilməsi, habelə xarici bazarlara çıxış imkanlarının genişləndirilməsi ilə mümkün olacaqdır.

## ƏDƏBİYYAT SİYAHISI:

1. Şəkərəliyev A.S. Dövlətin iqtisadi siyasəti: Dayanıqlı və davamlı inkişafın təntənəsi. Bakı, İqtisad Universiteti, 2011, 365 s.
2. Abdullayev K.N. Milli iqtisadiyyatın innovasiyalı inkişafının əsas xüsusiyyətləri "Tikintinin iqtisadiyyatı və menecment" (Elmi-praktiki jurnal), Azərbaycan Memarlıq və İnşaat Universiteti. Bakı: Elm, №1, 2020, s.159-162.
3. Əliyeva A.Ə. Bazar iqtisadiyyatı şəraitində sənaye müəssisələrinin rəqabətqabiliyyətinin yüksəldilməsi məsələləri // AMEA-nın xəbərləri (İqtisadiyyat seriyası). Bakı: Elm və Bilik, 2019, №1, s.101-108.
4. AR milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi. (2016). https://president.az/az/articles/view/21993
5. https://economy.gov.az/az/page/qarabag-azerbaycandir
6. https://www.yeniazerbaycan.com/Gundem_e9026_az.html

**Саадат Рамиль кызы ГУЛИЕВА**
Азербайджанская Академия Труда и Социальных Отношений
Доцент кафедры финансов и бухгалтерского учета
E-mail: 13sada@mail.ru

## АНАЛИЗ СОВРЕМЕННОГО СОСТОЯНИЯ НАЦИОНАЛЬНОЙ ЭКОНОМИКИ

**Резюме**

В статье исследуется текущее состояние национальной экономики, выявляются факторы и препятствия, которые негативно влияют на её развитие. Особое внимание уделяется тем аспектам, которые способствуют устойчивому росту и прогрессу экономики страны. Цель исследования состоит в анализе значения экономического и устойчивого развития для государства, выявлении слаборазвитых секторов экономики и подчеркивании трудностей, возникающих при создании устойчивой экономики в постконфликтных регионах.

**Методология** — для проведения исследования был использован системный подход.

**Основные результаты** — применение модели правоконфликтной структуры в Азербайджане охватывает широкий спектр областей, включая реформу административного деления, создание специализированных экономических зон, соответствующих принципам свободного рынка, а также разработку мультимодальных транспортных коридоров.

**Ключевые слова**: экономическое развитие, устойчивое развитие, национальная экономика, модель структуры конфликтных интересов.

**Saadat Ramil GULİYEVA**
Azerbaijan Academy of Labor and Social Relations
Associate Professor of the Department of Finance and Accounting
E-mail: 13sada@mail.ru

## ANALYSIS OF THE CURRENT STATE OF THE NATIONAL ECONOMY

**Summary**

This article examines the present state of the national economy, highlighting the factors and obstacles that have a negative effect on its development. The paper also delves into areas that contribute to the sustainable growth of the economy.

**Objective** - The objective is to analyze the significance of national economic and sustainable development for the country, identifying underdeveloped sectors and emphasizing the challenges of establishing a sustainable economy in post-conflict regions.

**Methodology** - a systematic approach was applied in this study.

**Research Findings** - the implementation of the right-conflict structure model in Azerbaijan covers various domains, including the reform of administrative territorial divisions, the establishment of special economic zones that reflect free-market principles, and the development of multimodal transport corridors.

**Keywords**: economic development, sustainable development, national economy, interest-conflict structure model.